# Səlim Babullaoğlu Almatıda "Ədəbi Ustalıq Məktəbi"ndə mühazirələr oxuyub





Azərbaycan Yazıçılar Birliyinin katibi, şair Səlim Babullaoğlu 26 avqust-1 sentyabr tarixlərində Almatıda Qazaxıstan Yazıçılar Birliyinin dəvəti və birliyin Qazaxıstan Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə, keçirilən "Ədəbi Ustalıq Məktəbi"ndə Azərbaycan, türk dünyası və dünya şeiri ilə bağlı mühazirələr oxuyub. Azərbaycan folkloru, Azərbaycan modern şeiri (Vaqif Səmədoğlu və Nurəngiz Gün), türk poeziyası (Orxan Vəli, Cəmal Süreyya), XX əsr Avropa şeiri (Çeslav Miloş, İosif Brodski) ilə bağlı altı fərqli mövzunu əhatə edən mühazirələr oxuyub. Əsasən A.Çexov adına Almatı şəhər kütləvi kitabxanasında, qismən Qazaxıstan Yazıçılar Birliyində təşkil olunan "Ədəbi Ustalıq Məktəbi"nin dinləyiciləri arasında Qazaxıstanın müxtəlif şəhərlərindən, əksər vilayətlərindən gəlmiş gənc ədiblər iştirak ediblər.

"Ədəbi Ustalıq Məktəbi"nin builki lektorları kimi, Polşa, Özbəkistan və Qırğızıstandan da tanınmış ədiblər, ədəbiyyatşünas alimlər dəvət alıblar.

Səlim Babullaoğlu yaradıcı ezamiyyə zamanı Qazaxıstan Yazıçılar Birliyində başqa maraqlı görüşlər keçirib, ötən il "Azərbaycan ədəbiyyatı ili" elan etmiş və il ərzindəki 6 buraxılışını bütünlüklə Azərbaycan ədəbiyyatına həsr edən "Tan Şolpan" jurnalına Azərbaycan Yazıçılar Birliyi adından "Fəxri Diplom" və jurnalın naşiri, Qazaxıstan Yazıçılar Birliyinin məsul əməkdaşı Didar Kulkenova Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvlük vəsiqəsini təqdim edib.

Qazaxıstan Yazıçılar Birliyinin sədri, tanınmış qazax yazıçısı, publisisti Mereke Kulkenov sonuncu gün "Ədəbi Ustalıq Məktəbi"nin lektorlarına Birliyin təşəkkürnaməsini və xüsusi sertifikatlar təqdim edib.

Səlim Babullaoğlu "Ədəbiyyat qəzeti"nə eksklüziv açıqlamasında bildirib ki, "Ədəbi Ustalıq Məktəbi" Qazaxıstan Yazıçılar Birliyinin sədri Mereke Kulkenovun təşəbbüsü ilə keçirilməyə başlayıb: "Artıq ikinci ildir təşkil olunur bu mühazirələr. Çox güman, növbəti illərdə bu təcrübə əsasında beynəlxalq statuslu ədəbi-yaradıcı təhsil müəssisəsi yaradılacaq Qazaxıstanda. Təxminən, Moskvadakı məşhur "Lintinstitut" kimi. Olduqca maraqlı və faydalı layihədir. Mühazirə oxumaq təklifini mənə Didar Kulkenov verdi. O, Azərbaycanın, ədəbiyyatımızın dostudur. Bacarıqlı, istedadlı təşkilatçıdır. Xüsusən, son illər türk respublikaları ədəbiyyatının, o cümlədən, bizim ədəbiyyatın qazax dilinə tərcüməsi və nəşri işində bir-birindən maraqlı layihələr təşkil edib, işlər görüb. Mən həm ona, həm Qazaxıstan Yazıçılar Birliyinin rəhbərliyinə dərin təşəkkür edirəm".